AZƏRBAYCAN TİBB UNİVERSİTETİ

"TƏBİB" TƏDRİS İDMAN MƏRKƏZİNİN

# ƏSASNAMƏSİ

| Sənədi tərtib edən | Redaksiya | Qeydiyyat nömrəsi | Qüvvəyə minmə tarixi | Qüvvədə olma müddəti |
|---|---|---|---|---|
| "Təbib" Tədris İdman Mərkəzi | 1-ci | | | |

## ƏSASNAMƏNİN BƏYANNAMƏSİ

| | |
|---|---|
| **Məqsəd** | TTİM-in fəaliyyətinin məqsədi ATU-nun tədris-maddi və idman-texniki bazalarını tam və səmərəli istifadə etməklə gələcək həkimlərin keyfiyyətli hazırlığını təmin etmək, həmçinin yüksək səviyyədə bədən tərbiyəsi, idman və sağlamlıq xidmətlərini göstərməkdir. |
| **Fəaliyyət dairəsi** | Tələbələrin hərbi vətənpərvərlik ruhunda təlim və tərbiyəsinə, sağlam həyat tərzi təşkil etməyi bacaran hərtərəfli inkişaf etmiş kadrların hazırlanmasına yardım göstərilməsi. Pedaqoji fəaliyyət olaraq təhsilalanların fiziki tərbiyə, müalicə bədən tərbiyəsi və idman fənnindən akademik dərslərin keçirilməsi. Elmi fəaliyyəti idman elmlərinin müvafiq sahələrinin inkişafına və elmi tədqiqatların nəticələrinin tədris prosesinə tətbiqinə yönəldilməsi. ATU-nun Həmkarlar İttifaqı Komitəsi, Tələbə Həmkarlar İttifaqı Komitəsi ilə yanaşı tələbə təşkilatlarının mədəni-kütləvi və idman-sağlamlıq tədbirlərinin keçirilməsi. Tələbələrə və universitetin əməkdaşlarına idman bölmələrində məşğul olmaqla, sağlamlıqlarının qorunması və aktiv istirahətin təşkili. TTİM tədris saatlarından azad vaxtlarda, yeniyetmə və gənclərin sağlamlığının qorunması, zərərli vərdişlərdən uzaqlaşdırılması, onların asudə vaxtlarının səmərəli keçirilməsi, eləcə də ölkəmizdə idman növlərinin inkişafına dəstək məqsədilə idman təşkilatlarına, fiziki və hüquqi şəxslərə ödənişli əsaslarla xidmətin göstərilməsi. |

BAKI – 2025

## MÜNDƏRİCAT

1. Ümumi müddəalar........................................................3
2. Normativ istinadlar.......................................................3
3. Terminlər və təriflər.....................................................4
4. TTİM-in funksiyaları......................................................4
5. TTİM-in hüquq və vəzifələri...............................................4
6. TTİM-in əmlakı və maliyyələşməsi..........................................6
7. TTİM-in fəaliyyətin təşkili...............................................6
8. Məsuliyyət................................................................6
9. Yekun müddəalar...........................................................7
10. Təşkilati-funksional quruluş.............................................7
11. Razılaşdırma vərəqi......................................................8
12. Sənəddə dəyişikliklərin edilməsi barədə qeydlər..........................8

## 1. Ümumi müddəalar

1.1. Bu əsasnamə **"Təbib" Tədris İdman Mərkəzinin** (bundan sonra TTİM) hüquqi statusunu, onun strukturunu, fəaliyyətinin məqsədini, funksiyasını, hüquq və məsuliyyətini müəyyən edir;
1.2. TTİM - Azərbaycan Tibb Universitetinin (bundan sonra ATU) struktur bölməsi olaraq, idman sağlamlığı üzrə təlim-tədris prosesi zamanı kompleksin mövcud olan bütün sahələrindən səmərəli və peşəkar istifadə olunması üçün vahid mərkəzdən idarə olunması məqsədilə "İdman kompleksi"nin və "Təbib" idman klubunun birləşdirilməsi nəticəsində yaradılmışdır;
1.3. TTİM Universitetin Elmi Şurasının qərarına əsasən rektorun əmri ilə yaradılır və ləğv edilir;
1.4. TTİM İnzibati təsərrüfat işləri üzrə prorektorun bilavasitə tabeçiliyində fəaliyyət göstərən struktur bölmədir;
1.5. TTİM-in müdiri İctimai Səhiyyə fakültəsinin Elmi Şurasının səsvermə hüququna malik olan üzvüdür;
1.6. TTİM fəaliyyəti ilə bağlı məqsədinə çatmaq üçün universitetin struktur bölmələri ilə yanaşı bütün fakültələrlə işini əlaqələndirir;
1.7. TTİM universitetin tərkibində öz adı olan möhürə, loqotipə, idman geyiminə, müvafiq ştampa malik ola bilər;
1.8. TTİM -in yerləşdiyi ünvan: AZ 1022, Bakı şəhəri, Nəsimi rayonu, Mərdanov qardaşları küç.98c.

## 2. Normativ istinadlar

2.1. TTİM özünün fəaliyyətində:
2.1.1. Azərbaycan Respublikasının Əmək Məcəlləsini;
2.1.2. "Təhsil sahəsinə aid olan qulluqçu vəzifələrinin Vahid Tarif-İxtisas Sorğu Kitabçası";
2.1.3. "Səhiyyə sahəsinə aid olan qulluqçu vəzifələrinin və fəhlə peşələrinin Vahid Tarif-İxtisas Sorğu Kitabçası";
2.1.4. Bütün sahələr üçün ümumi olan qulluqçu vəzifələrinin Vahid Tarif-İxtisas Sorğu Kitabçası;
2.1.5. "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanunu (19.06.2009-cu il № 833 IIIQ);
2.1.6. "Bədən tərbiyəsi və idman haqqında" Azərbaycan Respublikasının Qanunu (30.06.2009-cu il № 847-IIIQ);
2.1.7. Azərbaycan Respublikasının Prezidentinin fərman və sərəncamlarını;
2.1.8. Azərbaycan Respublikasının Nazirlər Kabinetinin qərarlarını;
2.1.9. Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin, Elm və Təhsil Nazirliyinin, Gənclər və İdman Nazirliyinin qərarlarını;
2.1.10. ATU-nun Nizamnaməsini;
2.1.11. Azərbaycan Tibb Universitetinin 2023-2030-cu illər üçün İnkişaf Strategiyası;
2.1.12. Kollektiv müqavilə;
2.1.13. ATU-nun daxili nizam-intizam qaydaları;
2.1.14. Elmi Şuranın və Rektor yanı Şuranın qərarları və digər lokal normativ sənədlər;

2.1.15. ATU rektorunun 31 may 2023-cü il tarixli 315 №-li əmr ilə təsdiq olunmuş "Azərbaycan Tibb Universitetində kargüzarlığın aparılmasına dair Təlimat";

2.1.16. "Azərbaycan Tibb Universitetinin 2023-2026-cı illər üçün Keyfiyyət Təminatı Siyasəti";

2.1.17. Azərbaycan Tibb Universitetinin "Keyfiyyət fəaliyyəti üzrə rəhbərlik";

2.1.18. Bu əsasnamə və vəzifə təlimatları.

### *3. Terminlər və təriflər*

| Terminlər | Təriflər |
|---|---|
| Tədris planı (TP) | Müvafiq təhsil pilləsində tədris olunan fənlərə və dərsdənkənar məşğələlərə ayrılan saatların miqdarını müəyyən edən əsas tənzimləyici sənəd; |
| Fakültə Elmi Şurası (FEŞ) | Fakültəyə ümumi rəhbərlik edən seçkili orqan; |

### *4. TTİM-in funksiyaları*

4.1. Universitetin Hərbi tibb fakültəsinin hərbi həkim hazırlığı, hərbi feldşer hazırlığı kursunun tələbə və kursantlarına eləcədə universitetin digər fakültələrinin tələbələrinə "Fiziki tərbiyə" fənni, bunlarla yanaşı Fizioterapiya və tibbi reabilitasiya (fizioterapist) ixtisası üzrə təhsil alan tələbələrə "Müalicə bədən tərbiyəsi", "Fiziki tərbiyə" və digər klinik olmayan fənlərdən tədris planlarında nəzərdə tutulduğu halda akademik praktiki və mühazirə dərslərinin keçirilməsinin təşkili və aparılması;

4.2. tədris məşğələlərinin, eləcədə tərbiyə işinin aparılması üçün tədris-metodik sənədlərin hazırlanması və vaxtaşırı təkmilləşdirilməsinin təmin edilməsi;

4.3. idman növləri üzrə bölmələrin yaradılması;

4.4. perspektivli tələbə-idmançıları müəyyən edərək, onların idman ustalığının artırılması məqsədilə müxtəlif növ yarışların keçirilməsi;

4.5. universitetdə təhsilalanların və universitet əməkdaşlarının iştirakı ilə idman-sağlamlıq, bədən tərbiyəsi və mədəni-kütləvi tədbirlərin həyata keçirilməsi;

4.6. idman yarışlarında və beynəlxalq seminarlarda qazanılan elmi-metodik təcrübənin tədris prosesində və idmançıların hazırlanmasında tətbiq edilməsi;

4.7. akademik dərslərdən asudə vaxtlarda fiziki və hüquqi şəxslərə idmanla məşğul olmaları üçün ödənişli əsaslarla xidmətin göstərilməsi;

4.8. akademik dərslərdən asudə vaxtlarda ödənişli xidmətlərdən istifadə etmək istəyən ATU-nun əməkdaşlarına və təhsilalanlarına qiymətlər Elmi Şuranın təsdiqlədiyi qiymət tarifinə uyğun güzəştlər əsasında xidmət həyata keçiriləcək.

*5. TTİM-in hüquq və vəzifələri*

**5.1. Hüquqlar:**

5.1.1. bədən tərbiyəsi, idman-sağlamlıq və digər mədəni-kütləvi tədbirlərin təşkilinə və keçirilməsinə ictimai fəalları, Tələbə Həmkarlar İttifaqı Komitəsinin tərkibində fəaliyyət göstərən tələbə klublarını, elm və sənət adamlarını, bədən tərbiyəsi və idman veteranlarını, Vətən müharibəsinin qazilərini və veteranlarını cəlb etmək;

5.1.2. tədris saatlarından azad vaxtlarda ödənişli əsaslarla idman yarışları və məşqləri təşkil etmək;

5.1.3. öz vəzifələrini yerinə yetirmək üçün digər struktur bölmələrindən müvafiq qaydada sənəd, arayış və digər məlumatlar almaq;

5.1.4. Respublika Vahid İdman Təsnifatına əsasən universitetin yığma komandasının üzvlərinə idman dərəcələri verir və Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi tərəfindən daha yüksək dərəcələrin verilməsi üçün ATU rektorunun qarşısında vəsatət qaldırmaq;

5.1.5. tədris-idman və sağlamlıq məşğələlərinin daha keyfiyyətli aparılması üçün normativ aktlara uyğun idman malları, inventarlar, idman qurğuları və alətləri ilə təmin olunmaq, köhnəlmiş və sıradan çıxmış idman avadanlıqlarının əvəz olunmasına köməklik göstərilməsi üçün universitet rəhbərliyinə müraciət etmək;

5.1.6. ölkədə və xarici dövlətlərdə fəaliyyət göstərən universitetlərin təlim-tədris və sağlamlıq mərkəzləri, eləcə də idman klubları ilə əlaqələr yaratmaq, beynəlxalq turnirlər, dostluq görüşləri təşkil etmək və ya keçirmək üçün universitetin rəhbərliyinə təkliflər vermək;

5.1.7. TTİM-in fəaliyyətini daha da genişləndirmək məqsədilə universitet rəhbərliyi ilə razılaşdırılmış investorlar və sponsorlar cəlb etmək;

**5.2. Vəzifələr:**

5.2.1. tədris qruplarında, müxtəlif idman növləri üzrə bölmələrdə peşəkar məşqçi-müəllimlər tərəfindən dərs və məşğələləri keyfiyyətli təşkil etmək və aparmaq;

5.2.2. təlim-tədris məşğələlərinin, eləcədə tərbiyə işinin aparılması və təminatı üçün tədris-metodik sənədləri işləmək;

5.2.3. elmi tədqiqat işlərinin aparılmasını təşkil etmək və həmin sahədə metodiki köməklik göstərmək;

5.2.4. müvafiq təhlükəsizlik tələblərinə cavab verən idman qurğu və avadanlıqları və inventarları təqdim etmək;

5.2.5. bədən tərbiyəsi və idman bölmələrində məşğələlərin aparılması zamanı sanitar-gigiyenik tələblərə və fiziki yüklənmə rejiminə riayət etmək;

5.2.6. tədris-idman prosesinin keyfiyyətinin artırılması məqsədilə maddi-texniki təminatını universitetin köməyi ilə həyata keçirmək, üzgüçülük hovuzunu, idman zallarını, təlim-tədris və fizioterapiya prosedur otaqlarını mövcud norma və tələblərə uyğun qurmaq, həmçinin idman avadanlıq və inventarları sanitar-gigiyenik qaydalara uyğun şəraitdə saxlamaq;

5.2.7. "bədən tərbiyəsi və idman" üzrə məşqçi-müəllimlərin peşə fəaliyyətinin (ixtisasının) artırılması məqsədi ilə 5 (beş) ildən gec olmayaraq onların attestasiyasını həyata keçirmək;

5.2.8. təhsilalanların idman ustalığının artırılması, eləcədə professor-müəllim heyətinin və əməkdaşların sağlamlıqlarının inkişaf etdirilməsi məqsədilə tədris-metodik toplantılar, elmi-metodik konfrans, seminar məşğələlər keçirmək;

5.2.9. təşkil etdiyi (məşğul olduğu) idman növləri üzrə fəaliyyət göstərən Respublika İdman Federasiyaları (Assosiasiyaları) ilə əlaqə saxlamaq, universitetin bölmələr üzrə yığma komandalarının müxtəlif yarışlarda iştirak etmələrini təmin etmək;
5.2.10. Fizioterapiya və tibbi reabilitasiya (fizioterapist) ixtisası üzrə təhsil alan tələbələrin OSKİ (Obyektiv Strukturlaşmış Klinik İmtahan) bacarıq imtahanlarının keçirilməsi, eləcə də tədrisin keyfiyyətinin artırılması məqsədilə laboratoriya, fizioterapiya prosedurları və tədris otaqlarının mövcud norma və tələblərə uyğun qurulmasına şərait yaratmaq;
5.2.11. normativ tələblərə uyğun olaraq sənədləşmə işlərini aparmaq.

### *6. TTİM-in əmlakı və maliyyələşməsi*

6.1. TTİM-in əsas vəsaitləri və avadanlıqları ATU-nun balansına daxildir və onların alınması eləcədə silinməsi müvafiq qaydada aparılır;
6.2. TTİM-in idman qurğuları, avadanlıqları, alətləri və digər inventarlarla təmin olunması təqdim olunmuş sifarişlər əsasında ATU-nun müvafiq xidmət strukturu tərəfindən həyata keçirilir;
6.3. TTİM-in maliyyə fəaliyyəti rektor tərəfindən təsdiq edilmiş universitetin xərclər smetasına uyğun olaraq həyata keçirilir;
**6.4. TTİM-in maliyyə mənbəyi:**
6.4.1. idman təşkilatlarının, fiziki və hüquqi şəxslərin ATU ilə bağlanılan birgə fəaliyyət müqaviləsi əsasında ödənişli xidmətlərdən əldə etdiyi gəlirlər;
6.4.2. ATU tərəfindən mədəni və kütləvi idman-sağlamlıq işlərinin təşkilinə ayrılan vəsait;
6.4.3. sponsorlardan daxil olan vəsaitlər, həmçinin digər fiziki və hüquqi şəxslərdən könüllü ianələr;
6.5. əldə olunan gəlirlər TTİM-in bazasında müasir idman qurğu və avadanlıqların alınmasına, mədəni-kütləvi və idman-sağlamlıq tədbirlərinin keçirilməsinə və sosial inkişafla bağlı məsələlərin həllinə, idmanın inkişafında qazanılmış yüksək nailiyyətlərə görə məşqçi-müəllimlərin və tələbə idmançıların fəxri fərmanla, diplomla, xatirə hədiyyəsi və pulla mükafatlandırılmasına, eləcədə cari təmir işlərinə sərf edilir;
6.6. TTİM-də ödənişli əsaslarla göstərilən xidmətlərin siyahısı, mərkəzin müdiri və universitetin Plan-iqtisadiyyat şöbəsi ilə birlikdə hazırlanır və universitetin Elmi Şurası tərəfindən təsdiq edilir;
6.7. Universitetin əməkdaşları TTİM-in xidmətlərindən güzəştli qiymətlərlə istifadə edir və tətbiq olunan güzəştlərin faiz dərəcəsi universitetin Elmi Şurasının qərarı ilə müəyyən edilir;
6.8. TTİM-in maliyyə fəaliyyətinə nəzarət ATU-nun mərkəzləşmiş mühasibatlığın Baş mühasibi tərəfindən aparılır.

### *7. TTİM-in fəaliyyətinin təşkili*

7.1. TTİM-in strukturu, say və ştat cədvəli ATU-nun rektoru tərəfindən təsdiq edilir;
7.2. TTİM-ə ATU-nun rektoru tərəfindən təyin edilmiş ali ixtisas təhsilli, yüksək idman dərəcəsinə malik, təşkilatçılıq və idarəetmə qabiliyyəti olan müdir rəhbərlik edir. Onun səlahiyyətləri bu Əsasnamə, əmək müqaviləsi və vəzifə öhdəlikləri ilə müəyyən edilir;

7.3. TTİM-in əməkdaşlarının işə qəbulu və azad edilməsi müdirin təqdimatı əsasında rektor tərəfindən həyata keçirilir. Onların hüquq və vəzifələri əmək müqaviləsində və vəzifə təlimatlarında müəyyən edilir.

### *8. Məsuliyyət*

8.1. TTİM-in işinin nəticələrinə görə tam məsuliyyəti mərkəzin müdiri daşıyır;
8.2. TTİM-in əməkdaşları öz səlahiyyətləri çərçivəsində yerinə yetirdikləri işə görə məsuliyyət daşıyırlar;
8.3. TTİM-in müdiri və onun tabeliyində fəaliyyət göstərənlər, səlahiyyətləri daxilində qarşıya qoyulmuş hədəflərə çatmağa, habelə təyin olunmuş vəzifə borclarının yerinə yetirilməsinə, fəaliyyəti zamanı Azərbaycan Respublikasının mövcud qanunvericiliyinə uyğun olaraq qanun pozuntularının törədilməsinə görə məsuliyyət daşıyırlar;
8.4. TTİM-in müdiri mərkəzin səlahiyyət dairəsində yaranan risklərə görə məsuliyyət daşıyır.

### *9. Yekun müddəalar*

9.1. Bu əsasnamə Universitetin Elmi Şurasının qərarına əsasən rektorun əmri ilə təsdiq edilir;
9.2. Bu əsasnaməyə dəyişikliklərin edilməsi Universitetin Elmi Şurasının qərarına əsasən rektorun əmri ilə həyata keçirilir.

## *10. Təşkilati-funksional quruluş*



## *11. Razılaşdırma vərəqi*

| Qüvvədə olma müddəti | Struktur bölmənin adı | Vəzifə | A.S.A. | Tarix | Razıyam | Razı deyiləm | Razı olmama səbəbi barədə qeyd |
|---|---|---|---|---|---|---|---|
| 3 il | | Tədris işləri üzrə prorektor | N.A. Pənahov | 24.04.25 | | | |
| | | İnzibati-təsərrüfat işləri üzrə prorektor | İ.A.Mehrabov | 24.04.25 | | | |
| | | Elmi katib | R.Ş.Talışınski | 23.04.25 | | | |
| | Mərkəzləşdirilmiş mühasibatlıq | Baş mühasib | R.K.Həsənova | 23.04.25 | | | |
| | Tədris departamenti | Rəhbər | K.M.Yaqubov | 23.04.25 | | | |
| | İnnovasiya və keyfiyyətin idarə olunması şöbəsi | Müdir | A.C.Babayeva | 23.04.25 | | | |
| | Kadrlar şöbəsi | Müdir | R.İ.Aslanova | 24.05.25 | | | |
| | Stomatologiya fakültəsi | Dekan | E.R.Əliyeva | 23.04.2025 | | | |
| | İctimai səhiyyə fakültəsi | Dekan | Q.S.Qəniyeva | 23.04.25 | | | |
| | Hərbi Tibb Fakültəsi | Rəis | M.V.Rzayev | 23.04.25 | | | |
| | Plan iqdisadiyyat şöbəsi | Müdir | R.G.Əbdülləlimov | 23.04.25 | | | |
| | | Hüquqşünas | K.F.Məmmədova | 23.04.2025 | | | |

## *12. Sənəddə dəyişikliklərin edilməsi barədə qeydlər*

| № | Səhifənin nömrəsi | | | Dəyişikliklərin əsaslandırılması | İmza | S.A.A. | Qüvvəyə minmə tarixi |
|---|---|---|---|---|---|---|---|
| | Dəyişilmiş | Yeni | Ləğv olunmuş | | | | |
| | | | | | | | |
| | | | | | | | |
| | | | | | | | |
| | | | | | | | |
| | | | | | | | |
| | | | | | | | |
| | | | | | | | |